**Azərbaycan Respublikası Energetika Nazirliyinin**
**Apellyasiya Şurası**

**Q Ə R A R № 3**

**Bakı şəhəri** **08 dekabr 2021-ci il**

Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurası (bundan sonra - Şura) namizəd Əliyev Azər Mübariz oğlunun dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticəsindən narazılığı barədə 18.11.2021 tarixli EN-02-Ə-4419/82/21 nömrəli şikayətinə baxaraq aşağıdakıları

**M Ü Ə Y Y Ə N E T D İ :**

Namizəd Əliyev Azər Mübariz oğlu 2021-ci il 13 sentyabr tarixində elan edilmiş müsabiqə üzrə müsahibə çərçivəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Bərpa olunan enerji mənbələrinin inkişafı şöbəsinin aparıcı məsləhətçisi vəzifəsi üzrə 2021-ci il 15 noyabr tarixində keçirilmiş müsahibədə iştirak etmiş və 15 bal toplayaraq iddia etdiyi vəzifəyə uyğun hesab edilməmişdir.

A.Əliyev Müsahibə Komissiyasının qərarından narazı qaldığını bildirərək, müsahibənin nəticəsinə yenidən baxılmasını xahiş etmişdir.

Beləliklə, vətəndaşın şikayəti Şuranın icraatına qəbul edilərək 08 dekabr 2021-ci il tarixli iclasın gündəliyinə daxil edilmişdir. Şuranın iclasında aparılan müzakirələrdə, eyni zamanda müsahibənin video çəkilişinə baxılan zaman müəyyən edilmişdir ki, A.Əliyev ilə aparılmış müsahibə zamanı qanunvericiliyin tələbləri, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1480 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın tələbləri pozulmamış, eyni zamanda obyektivliyə əməl olunmaqla qərəzliliyə yol verilməmişdir. Bununla da, işin faktiki halları və qanunvericiliyin müvafiq müddəaları nəzərə alınmaqla şikayətin təmin edilməməsi qərara alınmışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 7.3.1-ci yarımbəndini rəhbər tutaraq, Energetika Nazirliyinin Apellyasiya Şurası

**Q Ə R A R A   A L I R :**

1. Əliyev Azər Mübariz oğlunun dövlət qulluğuna qəbulla bağlı keçirilmiş müsahibənin nəticəsindən narazılığı barədə şikayəti təmin edilməsin.

2. Müsahibə Komissiyasının Əliyev Azər Mübariz oğlu barəsində qəbul etdiyi qərar qüvvədə saxlanılsın.

3. Qərarın surəti məlumat üçün Əliyev Azər Mübariz oğluna göndərilsin.

4. Qərardan onun təqdim olunduğu vaxtdan 30 gün müddətində məhkəməyə şikayət verilə bilər.

**Azərbaycan Respublikası**
**Energetika Nazirliyinin**
**Apellyasiya Şurasının sədri** **Samir Vəliyev**